# Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin yaradılması haqqında" 2017-ci il 18 oktyabr tarixli 1638 nömrəli və "Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2017-ci il 19 dekabr tarixli 1748 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 18 oktyabr tarixli 1638 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 10, maddə 1805 (Cild I) 2.2-ci bəndində "iki" sözü "üç" sözü ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 19 dekabr tarixli 1748 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (I kitab), maddə 2316 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin Nizamnaməsi"nin 4.3-cü bəndinin ikinci cümləsində "üç" sözü "dörd" sözü ilə, "iki" sözü "üç" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 fevral 2025-ci il*

Azərbaycan.- 2025.- 5 fevral (№ 25).- S.2.